# Diplomatiyada təşəbbüskarlıq və konstruktivlik mühüm amildir



Səyyad ARAN,
Milli Məclisin deputatı.

**Vaşinqton görüşləri Azərbaycan Prezidentinin təşəbbüskarlığı və dinamikliyi ilə daha çox diqqət çəkdi. Prezident İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına (ABŞ) səfəri çərçivəsində avqustun 8-də Ağ Evdə keçirdiyi görüşlər Azərbaycanın diplomatiya tarixində tarixi dönüş nöqtəsi kimi yadda qaldı. Bu səfər Azərbaycan-ABŞ münasibətlərini strateji tərəfdaşlıq mərhələsinə yüksəldib və Ermənistan-Azərbaycan sülh gündəliyinin konkret nəticələrə doğru irəliləməsinə ciddi təkan verib.**

Vaşinqtondakı görüşlər zamanı əldə olunan razılaşmalar yalnız diplomatik sənəd olmaqla kifayətlənmədi, onlar regionda yeni müharibə təhlükəsinin qarşısını almağa, minlərlə gəncin həyatını qorumağa xidmət edən böyük sülh və sabitlik zəminini yaratdı. Bundan əvvəl Prezident İlham Əliyevin qətiyyətli və uzaqgörən siyasəti sayəsində Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi. Sonra isə regionda sülh gündəliyinin həyata keçirilməsi yolunda təşəbbüs irəli sürdü.

Xüsusilə Zəngəzur dəhlizinin açılması üzrə razılaşma Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə əlaqəsini maneəsiz təmin etməklə yanaşı, regional nəqliyyat və iqtisadi inteqrasiyanın əsasını qoyur. Bu layihə ABŞ konsorsiumunun nəzarəti altında idarə olunacaq və bu, Azərbaycanın ticarət və tranzit imkanlarını əhəmiyyətli dərəcədə artıracaq.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin qalib rəhbər imici özünü açıq şəkildə büruzə verdi. Hamı tərəfindən təkrar olunan fikirdən yan keçə bilmirəm. Bu olduqca tarixi görüş idi. Əvvəla, 33 illik 907-ci düzəliş ləğv edildi. Biz bunu illərdir ki, gözləyirdik. Nəhayət, bu ədalətsizlik aradan qaldırıldı. Zəngəzur dəhlizinin birmənalı açılmasına qərar verildi. Azərbaycan prezidentinə hədsiz diqqət və hörmət özünü açıq şəkildə göstərdi. ABŞ prezidenti Donald Tramp bütün jestləri ilə Azərbaycan prezidentinə olan hüsn-rəğbətini bildirdi. Dövlət başçısının 22 illik rəhbərliyini cəsarətli və qürurverici adlandırdı.

Danışıqlar prosesində İlham Əliyev təşəbbüskarlığı və dinamikliyi ilə daha çox diqqət çəkdi. Cənab Prezidentin çıxışlarında, təkliflərində konstruktivlik özünü göstərdi. İlham Əliyevin illərdən bəri düzgün, səmərəli və uzaqgörən siyasəti öz bəhrəsini verdi. Nəyi, necə və nə vaxt etmək lazım olduğunu parlaq şəkildə təsdiq etdi. İlham Əliyev bu məsələlərə görə Trampın Nobel sülh mükafatına layiq görülməli olduğunu bildirdi, daha sonra Ermənistanın baş naziri Nikol Paşinyan da bunu təkrar etdi. Azərbaycan Prezidentinin sanbalı və təmkini Paşinyanla müqayisədə daha yüksək görünürdü. Əlbəttə, bu da illərin təcrübəsi olaraq dahi Heydər Əliyev məktəbindən bəhrələnmənin nəticəsidir.

Artıq gələcək sülh sazişinin mətni müxtəlif mətbuat orqanlarında səsləndirilib. Hesab edirəm ki, bu sülh sazişi mükəmməl sənəddir. Tərəflər bu sülh müqaviləsinə istinad etməklə gələcəkdə davamlı sülh şəraitində uzun illər yaşayacaqlar. ■

Respublika.- 2025.- 13 avqust (№168).- S.6.